# QAYDALAR VƏ ŞƏRTLƏR

Bu Qaydalar və Şərtlər (bundan sonra "Qaydalar") SKY NET AZERBAIJAN (bundan sonra "İcraçı") tərəfindən www.emed.az veb səhifəsi və ya E-Med mobil tətbiqi (bundan sonra "Rəqəmsal Platforma") vasitəsilə təqdim olunan xidmətlərə dair qayda və şərtləri özündə ehtiva edir və Siz (bundan sonra "İstifadəçi" və ya "Pasiyent") Rəqəmsal Platformada qeydiyyatdan keçməklə Qaydaları diqqətlə oxuduğunuzu, mətnini tam şəkildə anladığınızı və onun şərtlərini qəbul etdiyinizi bəyan edirsiniz.

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. İcraçı bəyan edir ki, o, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq qaydada təsis edilmişdir və Rəqəmsal Platforma onun layihəsidir (bundan sonra "Layihə"). Layihəyə həmçinin Rəqəmsal Platforma vasitəsilə xidmət göstərən digər strukturların da fəaliyyəti daxildir.

1.2. Rəqəmsal Platforma, süni intellekt vasitəsilə databazadakı məlumatlara uyğun olaraq ünvanladığı suallara İstifadəçinin verdiyi cavablara əsasən ilkin köməkçi tibbi rəy təqdim edən, telesəhiyyə rəqəmsal səhiyyə xidmətidir. Rəqəmsal Platforma öz fəaliyyətini www.e-med.az, www.emed.az veb səhifəsi və ya E-Med mobil tətbiqi vasitəsilə həyata keçirir.

1.3. Xidmətlər dedikdə, İcraçı tərəfindən İstifadəçiyə Rəqəmsal Platforma vasitəsilə onlayn qaydada tibbi konsultasiyasının göstərilməsi nəzərdə tutulur. Xidmətlər video, audio yaxud yazı vasitəsilə təqdim edilə bilər.

1.4. Həkim-konsultant dedikdə, Rəqəmsal Platforma istifadəçilərinə xidmətlər göstərmək məqsədilə İcraçı ilə müvafiq qaydada müqavilə imzalamış və süni intellekt vasitəsilə databazadakı məlumatlara uyğun olaraq ünvanlanan suallara Pasientin verdiyi cavabları təhlil edən, onunla onlayn qaydada görüşərək və ya zəngləşərək toplanılmış məlumatları dəqiqləşdirərək İxtisaslaşmış həkimə təqdim edən həkimlər başa düşülür.

1.5. İxtisaslaşmış həkim dedikdə, Rəqəmsal Platforma istifadəçilərinə xidmətlər göstərmək məqsədilə İcraçı ilə müvafiq qaydada müqavilə imzalamış və həkim-konsultant tərəfindən ona ötürülmüş məlumatlar əsasında ilkin köməkçi tibbi rəy hazırlayaraq Rəqəmsal Platforma vasitəsilə Pasientə təqdim edən həkimlər başa düşülür.

1.6. Tibb müəssisəsi dedikdə, Rəqəmsal Platforma istifadəçilərinə xidmətlər göstərmək məqsədilə İcraçı ilə müvafiq qaydada müqavilə imzalamış və tibbi xidmətlər təqdim edən klinika, xəstəxana, hospital, poliklinika, laborotoriya və digər tibb müəssisələribaşa düşülür.

1.7. Bu Qaydaların 2.4-cü maddəsində göstərilən qeydiyyat haqqına yalnız 3.3-cü maddədə nəzərdə tutulmuş xidmətlərin göstərilməsi daxildir. Digər və ya əlavə tibbi xidmətlərin göstərilməsi ayrıca müqavilə ilə tənzimlənəcəkdir.

## 2. RƏQƏMSAL PLATFORMADAN İSTİFADƏ

2.1. İstifadəçi İcraçının müəyyən etdiyi qaydalara uyğun olaraq Rəqəmsal Platformada qeydiyyatdan keçmək üçün orada öz şəxsi məlumatlarını daxil edir, daha sonra qeydiyyat haqqını ödəyir. Yalnız bundan sonra İstifadəçi istifadəçi adı (və ya şəxsi identifikasiya nömrəsi) və şifrə təyin edə bilər. Daha sonra Rəqəmsal Platforma üzərində onun şəxsi kabineti aktivləşir.

2.2. Şəxsi kabinetdə Pasientin müayinə və müalicəsinə dair informasiyalar da daxil olmaqla, onun digər şəxsi məlumatları yer alır.

2.3. İstifadəçi şəxsi kabinetdə mövcud olan məlumatları fayl şəklində yükləyərək istifadə edə bilər.

2.4. İstifadəçi adı və şifrə unikaldır və yalnız İstifadəçinin özü üçün nəzərdə tutulur.

2.5. İstifadəçi istifadəçi adı və şifrəni üçüncü tərəfə verməməlidir. O, şifrənin məxfi saxlanmasına görə məsuliyyət daşıyır.

2.6. İcraçı İstifadəçinin Rəqəmsal Platformada olan məlumatlarından və istifadəçi adından yararlanmaq üçün icazə verdiyi və ya icazəsiz formada üçüncü tərəfin əldə etdiyi, yaxud yaydığı məlumata və sui-istifadələrə görə heç bir məsuliyyət daşımır.

2.7. İstifadəçi şəxsi kabinetə giriş üçün zəruri olan məlumatları unutduqda və ya itirdikdə və ya hər hansı başqa səbəbdən öz şəxsi kabinetinə giriş edə bilmədikdə, bu barədə İcraçının rəsmi e-mail ünvanına müraciət ünvanlayır. İcraçı tərəfindən məsələyə dair öz qaydaları çərçivəsində araşdırılma aparılır və müraciət edən şəxsin şəxsiyyəti və problem təsdiqləndikdən sonra İstifadəçiyə şəxsi kabinetə giriş üçün yeni istifadəçi adı və ya şifrə təqdim edilə bilər.

2.8. Qeydiyyat haqqı birdəfəlik olmaqla 00 AZN (00 manat) təşkil edir və İcraçının müəyyən etdiyi qaydada ödənilməlidir.

2.9. Qeydiyyatdan keçməklə İstifadəçi bəyan edir ki, müvafiq razılaşmaları və şərtləri qəbul etmək üçün fiziki şəxs olaraq yetkinlik yaşına çatıb, yaxud digər şəxsin (üçüncü tərəfin) adından çıxış etmək üçün ona Rəqəmsal Platformada qeydiyyatdan keçmək və hazırkı Qaydaları qəbul etməyə səlahiyyət verilib.

2.10. İstifadəçi Rəqəmsal Platformaya daxil olduqdan sonra xidmətlərin göstərilməsi üçün zəruri olan bütün məlumatları doğru və dəqiq formada Rəqəmsal Platformada müvafiq bölməyə əlavə etməlidir.

2.11. İcraçı İstifadəçi tərəfindən Rəqəmsal Platformaya daxil edilmiş məlumatların səhvliyindən irəli gələn heç bir xidmətə görə məsuliyyət daşımır.

2.12. İcraçı İstifadəçi tərəfindən Rəqəmsal Platformaya daxil edilmiş məlumatların məxfilik siyasəti çərçivəsində qorunmasına görə məsuliyyət daşıyır.

2.13. İcraçı İstifadəçi tərəfindən Rəqəmsal Platformaya daxil edilmiş məlumatları qanunvericiliklə tələb olunduğu qaydada müvafiq qurumlara təqdim edə bilər.

2.14. İstifadəçi Rəqəmsal Platformaya daxil etdiyi məlumatların həqiqiliyini təsdiq edir, həmin məlumatların İcraçı tərəfindən saxlanılmasına, emal edilməsinə və hər hansı formada işlənilməsinə və ya istifadə edilməsinə, eyni zamanda xidmətlərin icrası üçün zəruri olduğu hallarda üçüncü tərəfə ötürülməsinə etiraz etmir.

## 3. XİDMƏTLƏRİN GÖSTƏRİLMƏ QAYDASI

3.1. İcraçı Pasientə Rəqəmsal Platforma vasitəsilə tibbi konsultasiya göstərir.

3.2. Rəqəmsal Platforma vasitəsilə təqdim edilən ilkin köməkçi tibbi rəy Pasientə yalnız tibbi konsultasiyanın göstərilməsinə və bir sıra xəstəliklərin öncədən aşkarlanmasına köməklik göstərir.

3.3. Rəqəmsal Platforma vasitəsilə xidmətlər aşağıdakı qaydada göstərilir:

3.3.1. Birinci mərhələdə süni intellekt vasitəsilə databazadakı məlumatlara uyğun olaraq ünvanlanan suallara Pasient doğru və dəqiq cavablar təqdim edir;

3.3.2. İkinci mərhələdə süni intellekt tərəfindən Pasientin təqdim etdiyi cavablar emal olunaraq həkim-konsultanta ötürülür;

3.3.3. Üçüncü mərhələdə həkim-konsultant süni intellekt tərəfindən təqdim edilən məlumatları nəzərdən keçirir, Pasientlə onlayn qaydada (adi zəng, video zəng və s.) görüşərək dəqiqləşdirmələr aparır. Görüş zamanı həkim-konsultant tərəfindən xidmətlərin icrası məqsədilə Pasientə suallar təqdim edilə və foto çəkilişlər aparıla bilər. Eyni zamanda, görüşün video qeydiyyatı aparılacaqdır.

3.3.4. Dördüncü mərhələdə həkim-konsultant tərəfindən tərtib edilmiş məlumat toplusu ilkin köməkçi tibbi rəyin tərtib edilməsi məqsədilə ixtisaslaşmış həkimə ötürülür.

3.3.5. İxtisaslaşmış həkim ona təqdim edilmiş məlumatlar əsasında ilkin köməkçi tibbi rəy hazırlayaraq Rəqəmsal Platforma vasitəsilə Pasientə təqdim edir. Bu mərhələdə də ehtiyac olduğu təqdirdə, ixtisaslaşmış həkim Pasientlə onlayn qaydada (adi zəng, video zəng və s.) görüşərək dəqiqləşdirmələr apara, xidmətlərin icrası məqsədilə Pasientə suallar təqdim edilə və foto çəkilişlər aparıla bilər. Görüş olduğu təqdirdə görüşün video qeydiyyatı aparılacaqdır.

3.4. Rəqəmsal Platforma vasitəsilə göstərilən xidmətlər Qaydaların 3.3-cü maddəsi ilə məhdudlaşır.

3.5. Rəqəmsal Platforma vasitəsilə göstərilən xidmətlər yekunlaşdıqdan sonra Pasientin istəyi əsasında İcraçı tərəfindən ona digər tibbi xidmətlər gsötərilə bilər.

3.6. Pasientin istəyi və seçimi əsasında tibb müəssisələri tərəfindən göstəriləcək tibbi xidmətlərə görə həmin tibb müəssisəsi ayrıca xidmət haqqı tələb edə bilər və həmin xidmətlərə görə İcraçı məsuliyyət daşımayacaqdır.

3.7. Pasientin istəyi və seçimi əsasında Azərbaycandan kənarda tibbi xidmətlərin göstərilməsi ayrıca müqavilə ilə tənzimlənəcəkdir.

3.8. Pasient qəbul edir ki, təcili hallarda Rəqəmsal Platformanın istifadə edilməsi arzuolunan nəticələr verməyə bilər.

3.9. Rəqəmsal Platformadan və Xidmətdən istifadə peşəkar tibbi diaqnoz və ya müalicəni əvəz etmir və Pasientə təqdim olunan məlumatlar yalnız onun öz məsuliyyəti üzrə istifadə edilə bilər.

3.10. Həkim-konsultant, ixtisaslaşmış həkim və ya tibb müəssisəsinin təqdim etdiyi rəylərin doğruluğuna və ya arzuolunmaz nəticələrinə görə yalnız həmin həkim və ya tibb müəssisəsi məsuliyyət daşıyır.

3.11. Xidmətlərin icrası ilə əlaqədar İcraçı tərəfindən Pasientə avtomatik qaydada və ya digər formada mobil və ya e-mail bildirişləri göndərilə bilər.

3.12. Hazırkı Xidmətdən istifadə etməklə Pasient aşağıdakıları qəbul edir:

3.12.1. Rəqəmsal Platformada olan istifadəçi adını yalnız öz şəxsi məqsədləri üçün istifadəedəcək və üçüncü tərəfə satmayacaq;

3.12.2. Rəqəmsal Platformadan gəlir məqsədilə istifadə etməyəcək;

3.12.3. Hazırkı Qaydalara riayət edəcək;

3.12.4. Başqa şəxslərə öz istifadəçi adından yararlanmağa icazə verməyəcək;

3.12.5. Müvafiq icazə olmadan başqa bir şəxsin hər hansı bir hüququnu pozacaq istifadəçiadından istifadə etməyəcək;

3.12.6. Xidmətdən qeyri-qanuni məqsədlər üçün, o cümlədən hər hansı bir qeyri-qanuni materialın yayılması, yaxud saxlanılması və ya zərərli məqsədlər üçün istifadə etməyəcək;

3.12.7. Xidmətə, Rəqəmsal Platformaya və İcraçının işgüzar nüfuzuna xələl gətirəcək hərəkətlərə yol verməyəcək;

3.12.8. Xidmətdən istifadə edərkən qanunvericiliyə riayət edəcək;

3.12.9. Rəqəmsal Platforma vasitəsilə təqdim edilən ilkin köməkçi tibbi rəy tibbi müayinə və müalicədən başqa məqsədlər üçün yalnız müvafiq dövlət qurumları tərəfindən təsdiq edildiyi halda istifadə edilə bilər.

3.13. İstifadəçi yuxarıda göstərilən şərtlərin hər hansı birinə və ya Qaydalara riayət etmədiyi təqdirdə, İcraçı Xidməti dərhal ləğv edə və Pasientin istifadəçi adını bağlayaraq onun Rəqəmsal Paltformaya girişini məhdudlaşdıra bilər.

## 4. YEKUN MÜDDƏALAR

4.1. İcraçı Rəqəmsal Platforma vasitəsilə hər hansı yeni funksiyalardan istifadəyə görəxidmət haqqı tətbiq edə və ya əvvəlcədən xəbərdarlıq etməklə bu Qaydalara düzəlişləredə bilər.

4.2. İcraçı öz mülahizəsi əsasında Rəqəmsal Platformada təqdimedilən xidmətləri istənilən vaxt hər hansı İstifadəçi üçün dayandırmaq hüququnu özündə saxlayır.

4.3. İstifadəçi qeydiyyatdan sonra Qaydaların hər hansı bir müddəası ilə razı olmadığı təqdirdə, Xidmətdən istifadəni dayandıra və Rəqəmsal Platformada olan qeydiyyatını ləğv edə bilər.

4.4. Rəqəmsal Platforma və burada əks olunmuş məzmun İcraçının mülkiyyəti sayılır və onun razılığı olmadan heç bir formada digər şəxslər tərəfindən istifadə edilə bilməz.